*Yeni miniatür nəşr*

# UNESCO-nun xoşməramlı səfirləri miniatür kitabda




Dünyada analoqu olmayan Miniatür Kitab Muzeyinin ölkəmizdə fəaliyyət göstərməsi barədə dəfələrlə söz açılıb. 14 il ərzində Azərbaycan tarixi və mədəniyyətinin təbliğatçısına çevrilən muzeyin vaxtaşırı nəşr etdiyi miniatür kitablar beynəlxalq miqyasda tanınır və yüksək dəyərləndirilir.

“İndigo” nəşriyyatında yeni işıq üzü görən növbəti nəşrlərdən biri də ingilis dilində, 50x60 mm formatda, 150 nüsxə və 376 səhifədən (119 ədəd rəngli şəkillə və incə zövqlə tərtib edilən) ibarət “UNESCO-nun xoşməramlı səfirləri” adlı miniatür kitabdır.

Xüsusi tərtibatlı, zəngin məlumatlı bu kitab UNESCO-nun 68 xoşməramlı səfirindən biri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ad gününə Miniatür Kitab Muzeyi, respublika “Kitab” cəmiyyəti tərəfindən hədiyyə olaraq nəşr edilib.

Kitabda bir-birindən maraqlı məlumatlar, xüsusən UNESCO və onun xoşməramlı səfirlərinin fəaliyyətləri qısa şəkildə verilib. UNESCO-nun əsas missiyasının yerinə yetirilməsində təşkilatın xoşməramlı səfirlərinin fəaliyyətlərinin burada yığcam şəkildə əksi olduqca təqdirəlayiqdir. Kitabda həmçinin yüksək humanist məqsədə xidmət edən Jordan Firjal, Zurab Sereteli, Mstislav Rostropoviç, Claudia Cardinale, Nelson Mandela, Placido Domingo, Denis Matsuyev, Pierre Cardin kimi dünyada sülh carçıları, nəcib əməlləri ilə məşhur olan xoşməramlıların fəaliyyətlərindən də bəhs edilir.

Miniatür kitabda diqqət çəkən məqamlar çoxdur, ən maraqlısı isə, təbii ki, Azərbaycan Respublikasının UNESCO-da xoşməramlı səfiri kimi ölkəmizi layiqincə təmsil edən Mehriban xanım Əliyevanın həyat və nəcib fəaliyyəti fonunda xalqımızın milli-mənəvi sərvəti və maddi mədəniyyət nümunələrinin beynəlxalq miqyasda tanınması, təbliği və bu xətlə qorunması barədə məlumatlara geniş yer ayrılmasıdır.

Kitabda qeyd edildiyi kimi, milli-mənəvi dəyərlərin saxlanılması Mehriban xanım Əliyevanın fəaliyyəti və ümumiyyətlə, mədəni irsin, milli və qlobal əhəmiyyətli tarixi abidələrin bərpası, eləcə də yeni mədəniyyət obyektlərinin tikintisi, beynəlxalq ictimaiyyətin bu istiqamətdə məlumatlandırılması kimi vacib informasiyaların burada toplanması mini-nəşrin dəyərini birə-on artıran faktlardır.

Dünya İrs Siyahısına daxil edilən maddi mədəniyyət abidələrindən biri kimi, ölkəmizin tarixi və mədəniyyət abidələrindən sayılan Qız qalası, Şirvanşahlar sarayı, Qobustan qayaüstü rəsmlərinin də verildiyi yüksək keyfiyyətli slayd-fotolara kitabda 50 səhifədən artıq yer ayrılıb.

***“Azərbaycan”***